AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# Yaşıl və dayanıqlılıqla əlaqəli kreditlər üzrə TƏLİMAT

Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
28 yanvar 2025-ci il
tarixli qərarı ilə təsdiq edilmişdir
Protokol № 04

**Mündəricat**

1. Ümumi müddəalar .......... 4
2. Anlayışlar .......... 4
3. “Yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlərin idarəetmə çərçivəsi .......... 5
4. “Yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlərin qiymətləndirilməsi .......... 6
5. “Dayanıqlılıqla əlaqəli” kreditlər üzrə ƏFG və ƏDH-lərin müəyyənləşdirilməsi .......... 7
6. Nəzarət və monitorinq .......... 7
7. Şəffaflıq və hesabatlılıq .......... 8
8. Potensialın artırılması .......... 9
“Yaşıl” və “Dayanıqlılıqla əlaqəli” Təlimat”a Əlavə 1 .......... 10
“Yaşıl” və “Dayanıqlılıqla əlaqəli” Təlimat”a Əlavə 2 .......... 15

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat yerli banklar, xarici bankların yerli filialları, bank olmayan kredit təşkilatları (BOKT) və kredit ittifaqları (bundan sonra – kredit təşkilatı) tərəfindən beynəlxalq maliyyə bazarlarında geniş istifadə olunan "Borc Bazarı Assosiasiyası (LMA)", "Asiya və Sakit Okean Borc Bazarı Assosiasiyası (APLMA)" və "Borc Sindikasiyası və Ticarəti Assosiasiyası (LSTA)" tərəfindən birgə hazırlanmış "Green Loan Principles (GLP) [1]" (bundan sonra – "Yaşıl Kredit Prinsipləri") və "Sustainability-Linked Loan Principles (SLLP)[2]" (bundan sonra – "Dayanıqlılıqla Əlaqəli Kredit Prinsipləri") nəzərə alınmaqla hazırlanmışdır və "yaşıl", həmçinin "dayanıqlılıqla əlaqəli" kreditlərin verilməsi üzrə tövsiyələri müəyyən edir.

1.2. Bu Təlimatın əsas məqsədi "yaşıl" və "dayanıqlılıqla əlaqəli" kreditləşmənin formalaşdırılmasını və təşviqini təmin etməklə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə reallaşdırılmalı olan beş milli prioritetdən biri kimi müəyyən edilmiş təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetini dəstəkləməkdir.

1.3. Bu Təlimatda qeyd edilən tövsiyələr minimum xarakter daşıyır və hər bir kredit təşkilatının ekoloji risklərə həssaslığı, biznes mühiti və risk profili nəzərə alınmaqla tətbiq edilir.

## 2. Anlayışlar

2.1. Bu Təlimatda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **"Yaşıl" kredit** – mövcud və yaxud yeni yaşıl fəaliyyətlərin (alt-fəaliyyətlərin) tam və ya bir hissəsinin maliyyələşdirilməsi, o cümlədən yenidən maliyyələşdirilməsi məqsədilə verilən kredit məhsulu (məsələn, kredit, qarantiya, akkreditiv və s.);

2.1.2. **Yaşıl fəaliyyət** – Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) İdarə Heyətinin 2024-cü il 07 noyabr tarixli 44 nömrəli Qərarı ilə təsdiq edilmiş Yaşıl Taksonomiyada qeyd edilən minimum tələblərə uyğun fəaliyyət;

2.1.3. "**Dayanıqlılıqla əlaqəli" kredit** – müştərinin müəyyənləşdirdiyi əsas dayanıqlılıq hədəfləri əsasında fəaliyyəti ölçülməklə verilən, dayanıqlılıq profilinin tədricən yaxşılaşdırılmasına, dayanıqlılıq hədəflərinə nail olunmasına, habelə ətraf mühit və sosial dayanıqlı iqtisadi fəaliyyətlərin dəstəklənməsinə yönələn kredit məhsulu;

2.1.4. **Əsas dayanıqlılıq hədəfləri (ƏDH)** – müştərinin dayanıqlılıq profilinin yaxşılaşdırılması üçün əsas fəaliyyət göstəriciləri üzrə müəyyən edilmiş hədəflər (məsələn, yenilənə bilən enerji mənbələrinin artırılması ilə 5 il ərzində istixana qazı emissiyalarının 30% azaldılması). Göstərici kimi yerli və kənar reytinqlər və digər əsas fəaliyyət göstəriciləri istifadə oluna bilər;

2.1.5**. Əsas Fəaliyyət Göstəriciləri (ƏFG)** – müştərinin dayanıqlılıq hədəflərinə nail olması üzrə əsas indikatorlar (məsələn, 1-ci və 2-ci dərəcəli istixana qazı emissiyalarının azaldılması);

---

[1] https://www.lsta.org/content/guidance-on-green-loan-principles-glp/
[2] https://www.lsta.org/content/sustainability-linked-loan-principles-sllp/

2.1.6. **Dayanıqlılıq profili** – borcalanın fəaliyyətinin həyata keçirilməsi zamanı onun ətraf mühitə, iqlimə və cəmiyyətə təsirini ifadə edən indikatorların məcmusu;

2.1.7. **“Yaşıl” imitasiya** – müştərinin dayanıqlılıqla bağlı bəyanatların, açıqlamaların, fəaliyyətlərin və ya kommunikasiya edilən məlumatın, maliyyə məhsulunun və ya maliyyə xidmətinin əsas dayanıqlılıq hədəflərini dəqiq və ədalətli şəkildə əks etdirmədiyi bir təcrübə. Bu təcrübə istehlakçılar, investorlar və ya digər bazar iştirakçıları üçün aldadıcı ola bilər. “Yaşıl” imitasiyaya aid bəzi nümunələr aşağıda göstərilmişdir:

2.1.7.1. istixana qazı emissiyalarının azaldılması barədə bəyanatın elan olunmasına baxmayaraq, icra planının olmaması;

2.1.7.2. layihənin ekoloji faydaları və digər dayanıqlılıq xüsusiyyətləri haqqında verilən məlumatın olduqca ümumi olması və spesifik xüsusiyyətlərinin açıqlanmaması (məsələn, kiçik təkmilləşdirmənin böyük təsirə malik olduğunu ifadə etmək və ya minimum tənzimləmə tələblərinə cavab verən məhsulu, sanki standartdan əhəmiyyətli dərəcədə yaxşı kimi tanıtmaq);

2.1.7.3. “yaşıl” və “dayanıqlı” sözlərindən əsaslı qaydada istifadə edilməməsi (standart tərifləri olmayan və asanlıqla yanlış təfsir oluna bilən “yaşıl” və ya “ekoloji cəhətdən təmiz” kimi qəsdən aldadıcı etiketlərin tətbiqi, digər mənfi təsirlərə məhəl qoymadan yalnız ekoloji xüsusiyyətin vurğulanması).

## 3. “Yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlərin idarəetmə çərçivəsi

3.1. Kredit təşkilatı “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məhsullarının idarə edilməsi çərçivəsini formalaşdırır. Bu çərçivənin məqsədi müvafiq kreditin kredit müddəti ərzində yaşıl və (və ya) dayanıqlı statusunun qorunub saxlanılmasıdır.

3.2. Ənənəvi kreditlər üzrə mövcud çərçivəyə əlavə olaraq kredit təşkilatı “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlərin təsdiqlənməsi və hesabatlılıq prosedurları, kreditin müntəzəm izlənməsi və dövri qiymətləndirilməsi, girovların qiymətləndirilməsi və problemli kreditlərin bərpası, habelə müvafiq kreditlərdən formalaşmış kredit portfelinin idarə edilməsi ilə bağlı daxili siyasət və qaydaları müəyyən edir.

3.3. Kredit təşkilatında yeni “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məhsullarının hazırlanması, təsdiqi və istifadəsi məsələləri üzrə daxili komitə yaradıla və ya bu məsələlər mövcud təşkilatdaxili komitələrdən birinə həvalə edilə bilər. “Yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məqsədləri üçün yaradılmış və ya müvafiq səlahiyyətlər həvalə edilmiş təşkilatdaxili digər komitənin (bundan sonra – Komitə) üzvləri kredit təşkilatının idarəetmə orqanlarının üzvləri, habelə strategiya, risklərin idarəedilməsi, hüquqi təminat bölməsi və digər bölmələrinin rəhbər şəxslərindən ibarət olmaqla formalaşdırıla bilər.

3.4. Komitənin vəzifələrinə aşağıdakılar aiddir:

3.4.1. “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlər üzrə strategiya və siyasət çərçivəsinin müəyyənləşdirilməsi;

3.4.2. “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlərin müəyyən edilməsi (tanınması) meyarlarının təsdiq edilməsi;

3.4.3. “yaşıl” və “dayanıqlılıqla əlaqəli” yeni kredit məhsullarının təsdiq edilməsi;

3.4.4. “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit(lər) üzrə daxili limitlərin (məsələn, kreditin həcmi, iqtisadi sektor, coğrafi ərazi) müəyyənləşdirilməsi;

3.4.5. “yaşıl” imitasiyanın qarşısının alınması ilə bağlı nəzarət mexanizmlərinin qurulmasının təmin edilməsi. Bu isə özündə kredit məhsulunun monitorinq prosesinin nəticəsində “qeyri-yaşıl” və “qeyri-dayanıqlılıqla əlaqəli” kateqoriyaya keçirilməsi üzrə qərar qəbul edilməsini də ehtiva edir.

3.5. Kredit təşkilatı “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlər üzrə qiymətləndirmənin aparılması məqsədilə ixtisaslaşmış struktur bölmə formalaşdıra bilər. Bu struktur bölmənin heyəti “yaşıl” və “dayanıqlılıqla əlaqəli” maliyyə alətləri üzrə lazımi bilik və təcrübəyə malik şəxslərdən təşkil edilir və layihələrin “yaşıl” və “dayanıqlılıqla əlaqəli” meyarlara uyğun olub-olmamasına, o cümlədən müştəri tərəfindən verilmiş təsdiqləyici sənədlərə rəy bildirir.

3.6. Kredit təşkilatı “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məhsulunun dizaynı, formalaşdırılması və Taksonomiyada əhatə olunan sektorlar və (və ya) kateqoriyalar üzrə təsnifləşdirmə çərçivəsi üzrə daxili qaydalar hazırlayır. Bu qaydalar Mərkəzi Bank tərəfindən qəbul edilmiş normativ xarakterli aktlar və təlimatlar, habelə “Yaşıl Kredit Prinsipləri” və “Dayanıqlılıqla Əlaqəli Kredit Prinsipləri” kimi beynəlxalq standartlar əsasında hazırlanır və mütəmadi olaraq nəzərdən keçirilir.

## 4. “Yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlərin qiymətləndirilməsi

4.1. Müştərilərin “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məhsulları üzrə tələblərə uyğunluğunu müəyyən etmək üçün müştəri uyğunluğu tədbirləri tətbiq edilir, habelə maliyyə və qeyri-maliyyə riskləri qiymətləndirilir.

4.2. Kredit təşkilatları “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məhsullarının təqdim edilməsi üçün müştərilərdən fəaliyyətin (və ya məhsulun) yaşıl olduğunu və (və ya) fəaliyyətin dayanıqlılığını təsdiq edən təsdiqləyici sənədlər tələb edir.

4.3. Təsdiqləyici sənədlər kimi aşağıdakı sənədlər çıxış edə bilər:

4.3.1. Özünü qiymətləndirmə sənədi;

4.3.2. İxtisaslaşmış şəxs(lər)dən əldə edilmiş təsdiqedici sənəd;

4.3.3. Müstəqil üçüncü tərəf(lər)dən əldə edilmiş təsdiqedici sənəd (sertifikat, reytinq).

4.4. Özünü qiymətləndirmə sənədi, müştəri “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditin tələblərinə, habelə “Yaşıl Taksonomiya”, “Yaşıl Kredit Prinsipləri” və ya “Dayanıqlılıqla Əlaqəli Kredit Prinsipləri”nə uyğunluğunu və bu fəaliyyət üzrə peşəkarlığını təsdiq edə bildiyi halda, müştərinin özü tərəfindən hazırlanır. “Yaşıl” binanın əldə edilməsi ilə bağlı kreditin verilməsi üzrə özünü qiymətləndirmə sənədinin nümunəsi bu Təlimata 1 nömrəli Əlavədə göstərilir.

4.5. İxtisaslaşmış şəxs(lər)dən əldə edilmiş təsdiqedici sənəd(lər)ə borcalanın biznes fəaliyyətinin ESİ təsirlərinin, habelə ƏFG və ƏDH indikatorlarının hesablanması və (və ya) “yaşıl” və ya “dayanıqlılıqla əlaqəli” kreditlərin verilməsi çərçivəsinin, kredit vəsaitinin aidiyyəti üzrə istifadəsinin təsdiq edilməsi barədə sənəd(lər) nümunə ola bilər.

4.5.1. İxtisaslaşmış şəxs qismində qanunla müəyyənləşdirilmiş dövlət orqanları (qurumları), habelə ətraf mühit üzrə məsləhətçilər, məsləhətçi şirkətlər və ya müstəqil reytinq agentlikləri çıxış edə bilər. İxtisaslaşmış şəxs aşağıdakı tələblərə cavab verməli və kredit təşkilatı və borcalan arasında razılaşdırılmaqla seçilməlidir:

4.5.1.1. dövlət orqanı olmayan şəxslərin müvafiq sahədə 5 il təcrübəsi olmalıdır;

4.5.1.2. qiymətləndirmələri uyğun şəkildə həyata keçirmək üçün əvvəlcədən müəyyən edilmiş metodologiya və prosedurlara malik olmalıdır;

4.5.1.3. aparılacaq qiymətləndirmələrə aid olan sahələri əhatə etmək üçün zəruri peşəkar təcrübə və ixtisasa malik işçilərə malik olmalıdır;

4.5.2. qiymətləndirmənin məqsədinin ümumi təsvirini, qiymətləndirmənin əhatə dairəsini, qiymətləndirməni aparan şəxslərin ixtisaslarını və onların xarici qiymətləndirici kimi təcrübəsini açıqlamalı, yaxud belə məlumatların harada mövcud olduğunu göstərməlidir.

4.6. Müstəqil üçüncü tərəf(lər)dən əldə edilmiş təsdiqedici sənəd(lər)ə nümunə kimi “yaşıl” kredit üzrə, Yaşıl Taksonomiyada enerji səmərəliliyi üzrə istinad edilmiş İSO 50001 standartı, LEED standartı sertifikatı kimi sənədlər göstərilə bilər. “Dayanıqlılıqla əlaqəli” kreditlər üzrə isə borcalanın ƏFG və ƏDH-lərini spesifik kriteriyalara uyğun olaraq ölçməklə müvafiq reytinqin verilməsini göstərən sənəd nümunə kimi göstərilə bilər.

4.7. Müstəqil üçüncü tərəf(lər)dən əldə edilmiş təsdiqedici sənəd(lər) məhsulun “yaşıl” olmasının qiymətləndirilməsi üçün texniki cəhətdən mürəkkəb olmayan məhsul və fəaliyyətlər üzrə kifayət edə bilər. Bu hallara nümunə kimi müəssisə üçün yeni A+++ enerji sərfiyyatı sertifikatlı kondisioner alımı və yaxud elektrikli avtomobil alışı üzrə kredit aid ola bilər.

4.8. Layihənin istiqamətindən və mürəkkəbliyindən asılı olaraq bu Təlimatın 4.3-cü bəndində qeyd edilən sənədlərdən biri və ya bir neçəsi tələb oluna bilər.

4.9. “Dayanıqlılıqla əlaqəli” kredit şərtləri qarşılıqlı razılaşdırılmış, əhəmiyyətli və əvvəlcədən müəyyən edilmiş əsas dayanıqlılıq hədəflərinə uyğunlaşdırılmaqla təyin edilir. Kredit, eyni zamanda həm “yaşıl”, həm də “dayanıqlılıqla əlaqəli” prinsiplərə uyğun ola bilər. Bu halda kredit “yaşıl” kredit kimi təsnif olunur.

## 5. “Dayanıqlılıqla əlaqəli” kredit üzrə ƏFG və ƏDH-lərin müəyyənləşdirilməsi

5.1. Hər bir “dayanıqlılıqla əlaqəli” kredit üzrə dayanıqlılıq performansını ölçmək məqsədilə hər bir əməliyyat üzrə müvafiq ƏFG və ƏDH indikatorlarları müştəri tərəfindən əvvəlcədən müəyyənləşdirilməlidir. Kredit təşkilatı müştəriyə müvafiq indikatorların məzmununun uyğunluğunun ixtisaslaşmış şəxs(lər) tərəfindən təsdiq edilməsini tövsiyə etməlidir. Bu Təlimata 2 nömrəli Əlavədə indikator kimi qəbul oluna bilən bəzi ümumi ƏDH kateqoriyaları göstərilmişdir.

5.2. “Dayanıqlılıqla əlaqəli” kredit məhsulları üzrə kredit təşkilatları müştərinin ƏFG və ƏDH-(ləri)ni qiymətləndirir. ƏDH müştərinin əsas biznes fəaliyyətinə uyğun olmalı, cari və gələcək fəaliyyəti üzrə strateji əhəmiyyət daşımalı, aydın və dəqiq metodologiya əsasında hesablanmalı və əvvəlcədən müəyyən olunmuş indikatorlar əsasında müqayisə oluna bilən olmalıdır.

5.3. Kredit təşkilatı qiymətləndirmə zamanı borcalandan “dayanıqlılıqla əlaqəli” kredit üzrə müəyyənləşdirilmiş ƏFG-lərə dair detallı məlumatları (uyğunluq, əhəmiyyətlilik, başlanğıc səviyyəsi və mümkün olduğu hallarda ƏFG-ni sənaye standartları ilə müqayisə etməsi və minimum 3 il üzrə indikatorlar), eləcə də ƏDH-lərin təfərrüatları (əsaslandırılmasını və hədəfin dərinlik səviyyəsini, ESİ/dayanıqlılıq strategiyalarında təsvir edilən ümumi dayanıqlılıq hədəfləri ilə uyğunluq, müqayisə yanaşması, borcalanın ƏDH indikatorlarının sektor üzrə orta göstəriciləri və borcalanın həmin ƏDH-yə necə nail olmağı planlaşdırdığı və s.) barədə məlumatları tələb etməlidir.

5.4. ƏDH-lər müvafiq ƏFG-lər üzrə əhəmiyyətli yaxşılaşmaları əks etdirməli və “Adi qaydada fəaliyyət (Business as Usual)” halını üstələməlidir.

5.5. ƏDH-lər müsbət təsir və dürüstlük əsasında təyin edilməli və kredit müddəti ərzində (tətbiq edildiyi müddətcə) müvafiq olaraq qalmalıdır.

## 6. Nəzarət və monitorinq

6.1. Kredit təşkilatı müştəri tərəfindən əldə edilmiş “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditin statusunun qorunub saxlanılmasını təmin etmək üçün müvafiq nəzarət və monitorinq tədbirlərini həyata keçirir. Bu məqsədlə kredit təşkilatları “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit portfelini azı illik əsasda dövri olaraq nəzərdən keçirir, ayrılmış vəsaitlərin təyinata uyğun səmərəli istifadəsini

qiymətləndirir. Bu məqsədlə müştərilər tərəfindən müvafiq kredit vəsaitləri hesabına alınmış məhsul və avadanlıqların, habelə görülmüş işlərin və göstərilmiş xidmətlərin müvafiq meyarlara uyğunluğu yoxlanılır, sui-istifadə halları olduqda aşkar edilir və bu təlimatla müəyyən edilmiş tədbirlər həyata keçirilir.

6.2. Dövri qiymətləndirmə zamanı müştərilərdən vəsaitlərin təyinatı üzrə istifadəsini təsdiqləyən sənədlər əldə edilir. Belə sənədlərə borcalan tərəfindən təqdim edilmiş özünü qiymətləndirmə sənədi, ixtisaslaşmış şəxs və (və ya) müstəqil üçüncü tərəfdən verilmiş təsdiqedici sənədlər aid edilə bilər. Monitorinq üçün hansı sənədlərin qiymətləndirmə kimi tələb olunacağı kredit iştirakçıları (müştəri və kredit təşkilatı) tərəfindən müqavilədə razılaşdırılmalıdır.

6.3. ƏDH-lər ilə bağlı məlumatlar ictimaiyyətə açıqlanmadığı və ya audit vasitəsilə digər formada təsdiqlənmədiyi hallarda müştərinin fəaliyyətinin ƏDH-lərə uyğunluğunun ixtisaslaşmış şəxs(lər) tərəfindən qiymətləndirilməsi tövsiyə edilir. Fəaliyyətin ƏDH-lərə uyğunluğunu təsdiq etmək üçün səhmləri kütləvi təklif edilən hüquqi şəxslər üzrə ictimaiyyətə açıqlanan məlumatlar kifayət edə bilər.

6.4. “Yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditin müqavilə şərtlərinə uyğun istifadə edilmədiyi hallar üzrə daxili qayda və prosedurlar hazırlanır. Belə hallar üzrə kreditin yenidən təsnifləşdirilməsi və “qeyri-yaşıl” və qeyri-dayanıqlılıqla əlaqəli” kateqoriyaya keçirilməsi mexanizmləri müəyyən edilir.

6.5. “Dayanıqlılıqla əlaqəli” kredit üzrə mütəmadi monitorinq əsasında kredit şərtləri borcalanın ƏDH-lərə nail olmasına bağlı olaraq dəyişə bilər. Kredit şərtlərinin dəyişməsi hallarına, lakin bunlarla məhdudlaşmamaqla aşağıdakılar nümunə olaraq göstərilə bilər:

6.5.1. qısamüddətli kreditlərdə (hər il yenilənən) müqavilədə əvvəlcədən müəyyən edilmiş ƏDH-lərə borcalan tərəfindən nail olunduqda faizlərin azaldılması, əks təqdirdə artırılması;

6.5.2 uzunmüddətli kreditlərdə (müddəti bir ildən çox olan) müqavilədə əvvəlcədən müəyyən edilmiş ƏDH-lərə borcalan tərəfindən nail olunduqda faizlərin və (və ya) digər ödənişlərin azaldılması, əks təqdirdə artırılması.

6.6. ƏDH-lərə nail olunduğu zaman bu nailiyyətlərin əldə edildiyini və şirkətin dayanıqlılıq idarəetməsində fəal müəssisə olduğunu müştərinin internet səhifəsi və ya digər bir ictimai resurslar vasitəsilə açıqlanması bank tərəfindən təklif edilir.

6.7. Müştəri müqavilə üzrə razılaşdırılmış ƏDH-lərə nail ola bilmədikdə onun sosial dayanıqlılığın yaxşılaşdırılmasına töhfə vermək üçün kredit şərtlərinin artırılmasının əksinə, həmin vəsaitlər müsbət sosial layihələrə yönləndirilə bilər (məsələn, faiz dərəcəsinin artımına ekvivalent məbləğin müştəri tərəfindən sosial layihələrə töhfə olaraq istifadəyə yönləndirilməsi).

## 7. Şəffaflıq və hesabatlılıq

7.1. “Yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit vasitəsilə maliyyələşmə əldə edən müştərinin şəffaflığının təmin olunması vacibdir və bu məqsədlə onlara müvafiq hesabatların təqdim olunması və ictimaiyyətə açıqlanması istiqamətində kredit təşkilatı tərəfindən müvafiq dəstək göstərilir.

7.2. Kredit təşkilatı “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məhsullarının təsnifləşdirilməsi sistemi daxil olmaqla strategiya və siyasət çərçivəsini ictimaiyyətə açıqlayır. Açıqlanan məlumatlar sırasına “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kredit məhsullarına dair ixtisaslaşmış şəxs(lər)dən alınmış rəylər barədə məlumat da daxil edilir.

7.3. Kredit təşkilatı “yaşıl” və “dayanıqlılıqla əlaqəli” maliyyə fəaliyyətlərinin ekoloji təsirlərinə dair məlumatları ictimaiyyətə açıqlayır. Buraya “yaşıl” və “dayanıqlılıqla əlaqəli” kreditlərin sayı və

ayrılmış ümumi kredit vəsaitinin məbləği və bu investisiyaların ekoloji təsirləri (məsələn, karbon emissiyasının azaldılması və s.) kimi məlumatlar daxildir.

7.4. Kredit təşkilatı "yaşıl" və "dayanıqlılıqla əlaqəli" bütün maliyyə fəaliyyətləri üzrə hesabatın şəffaflığını təmin etmək məqsədilə öz açıqlamalarını qabaqcıl beynəlxalq standartlara, o cümlədən Qlobal Hesabatlılıq Təşəbbüsü (Global Reporting Initiative (GRI), Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (International Financial Reporting Standards (IFRS) S1 və S2-yə uyğunlaşdırır.

7.5. Qiymətləndirmə sənədləri özündə keyfiyyət və mümkün olduğu hallarda, kəmiyyət göstəriciləri (məsələn, enerji qənaəti, istixana qazı emissiyalarında azalma) ehtiva etməli və indikatorların hazırlanması üzrə metodologiya və fərziyyələri detallı şəkildə əhatə etməlidir. Kəmiyyət göstəricilərinin hesablanması mümkün olmadığı halda, məhsulun "yaşıl" olduğunu təsdiq edən sənəd və digər keyfiyyət məlumatları qeyd edilə bilər.

7.6. Qiymətləndirilməni və müqayisəni asanlaşdırmaq üçün qiymətləndirmə sənədlərinin mümkün qədər beynəlxalq səviyyədə qəbul edilmiş indikatorlar və təriflərdən istifadə edərək hazırlanması təklif olunur.

7.7. "Dayanıqlılıqla əlaqəli" kreditlər üzrə monitorinq zamanı ƏFG və ƏDH-lərdə, həmçinin onların metodologiyasında nəzərdə tutulan dəyişikliklər tərəflər arasında razılaşdırılmalıdır.

## 8. Potensialın artırılması

8.1. Kredit təşkilatı işçi heyəti üçün "yaşıl" və "dayanıqlılıqla əlaqəli" kredit məhsulları üzrə təlimat hazırlayır və müvafiq təlimlər keçirir. Təlimlərin keçirilməsində əsas məqsəd "yaşıl" və "dayanıqlılıqla əlaqəli" kredit məhsulları üzrə təfsilatlı ekspertizanın aparılması və risklərin qiymətləndirilməsi üçün zəruri səriştə və bacarıqların yaradılmasıdır.

8.2. Təlimlər hər səviyyədən olan (idarəetmə orqanları və kredit təşkilatının digər əməkdaşları) və müxtəlif funksiyalar (risklərin idarə edilməsi, komplayens, hüquq, daxili audit, xəzinədarlıq və s.) üzrə fəaliyyət göstərən işçiləri əhatə edir.

8.3. Kredit təşkilatı "yaşıl" və "dayanıqlılıqla əlaqəli" kredit məhsullarının inkişafı proseslərinin səmərəli təşkili üçün zəruri resursların ayrılmasını təmin edir.

“Yaşıl” və “Dayanıqlılıqla əlaqəli” kreditlər üzrə
Təlimata Əlavə 1

## “Yaşıl” kredit üzrə müştərinin qiymətləndirilməsi üzrə SORĞU ANKETİ

**Ümumi məlumat**

**Sorğunu tamamlayan şəxsin adı, soyadı, atasının adı və vəzifəsi:**
**Hüquqi şəxsin adı və təşkilati hüquqi forması:**
**Cavablama tarixi:**

**Daşınmaz əmlak mövzusu üzrə suallar**

**1. Əmlakın adı:**

**2. Müvafiq əmlak haqqında aşağıdakı məlumatları təqdim edin:**
a. **Poçt kodu:**
b. **İstismar/Təmir ili:**
c. **Kvadrat metri/Vahid sayı:**

**3. Müvafiq əmlakın növü (təyinatı) hansıdır?**

☐ Çoxmənzilli bina ☐ Mehmanxana ☐ Sənaye
☐ Ofis ☐ Ticarət
☐ Müxtəlif məqsədlər üçün. Xahiş olunur izah edəsiniz.
☐ Digər. Xahiş olunur izah edəsiniz:

**4. Bina hər hansı ESİ (Ekoloji, Sosial və İdarəetmə) bina sertifikatına sahibdirmi, yaxud əldə etməyi planlaşdırırmı (məsələn, LEED, BREEAM, Green Globes, və s.)?**

☐ Xeyr
☐ Bəli. Aşağıdakı cədvəldə sertifikasiya sxemlərini və sertifikatın səviyyəsini seçərək əldə edildiyi və ya əldə ediləcəyi tarixi daxil edin.

| Sertifikasiya | Əldə edilmişdir | Əldə edilmiş və ya əldə edilməsi gözlənilən tarix | Planlaşdırılır |
|---|---|---|---|
| LEED Bina Dizaynı və Tikintisi<br>☐ Platin ☐Qızıl ☐Gümüş ☐ Sertifikatlaşdırılmış | ☐ | | ☐ |
| LEED Bina Əməliyyatları və Baxımı<br>☐ Platin ☐ Qızıl ☐ Gümüş ☐Sertifikatlaşdırılmış | ☐ | | ☐ |
| Green Globes<br>☐ 4 ☐3 ☐2 ☐1 | ☐ | | ☐ |
| DİGƏR | ☐ | | ☐ |

**5. Əmlak Enerji auditindən keçmişdirmi?**

☐ Xeyr

☐ Bəli Auditin tarixi ____________

**6. Əmlakın "dayanıqlılıq" göstəricilərini yaxşılaşdıracaq hər hansı bir investisiya layihəsi planlaşdırılırmı?**

☐ Xeyr

☐ Bəli. Planlaşdırılan investisiya layihəsinin ümumi əhatə dairəsini, məqsədini və dayanıqlılıq üzərindəki təsirini qeyd edin

**7. Əmlakın ekoloji və "dayanıqlılıq" göstəricilərini dəstəkləyən mövcud təkmilləşdirmələr varmı?** *Buraya LED işıqlar, aşağı axınlı sanitar avadanlıqları, permeabil asfalt, tullantıların minimallaşdırılması, aşağı emissivlikli pəncərələr və s. daxildir*.

☐ Xeyr

☐ Bəli. Mövcud təkmilləşdirmələrin əhatə dairəsi, zaman cədvəli və "dayanıqlılıq" göstəriciləri üzərindəki təsirini xülasə edin.

**8. Müvafiq binanın enerji istehlakı məlumatları müntəzəm olaraq yoxlanılırmı?**

☐ Xeyr

☐ Bəli. İzləmə metodu, izləmə aparan tərəf, izləmə tezliyi və üçüncü şəxs tərəfindən izləmə icmalını aşağıda qeyd edin:

*İzləmə metodu:*

☐ ESPM

☐ Digər (qeyd edin)

*İzləyən tərəf:*

☐ Daxili resurs tərəfindən izlənmə

☐ Üçüncü tərəf vasitəsilə izlənmə (üçüncü tərəfin adı):

*Tezlik:*

☐ Aylıq ☐ Rüblük ☐ İllik

☐ Digər (qeyd edin):

*Hər hansı bir bina növünün enerji istehlakını qiymətləndirməyə imkan tanıyan interaktiv və pulsuz resurs idarəetmə aləti olan Enerji Star Portfel Menecer (ESPM) hesabınızı kredit təşkilatı ilə paylaşmağa razılıq verirsinizmi?*

☐ Bəli

☐ Xeyr. Əgər yoxsa, illik olaraq ESPM və ya digər izləmə proqramından əsas göstəriciləri paylaşacaqsınızmı?☐ Bəli ☐ Xeyr

**9. İstilik və Soyutma**

**a. Binada hansı növ istilik sistemindən istifadə edilir? Tətbiq oluna bilən bütün variantları seçin:**

☐ Hava mənbəli istilik nasosları ☐ Mərkəzi istilik və hava kondisioneri

☐ Məcburi hava dövriyyəsi ☐ Buxar radiatoru

☐ Digər (izah edin):

**b. Bina üçün hansı istilik yanacağı istifadə olunur? Tətbiq oluna bilən bütün variantları seçin:**

☐ Neft (№2 neft, №4 neft, biodizel ilə qarışdırılmış №2 neft) ☐ Təbii qaz

☐ Biodizel ilə qarışdırılmış №4 neft ☐ Təbii Qaz və Neft (İkiqat yanacaq)

☐ Digər (izah edin):

**c. Bina bir neçə bölmədən ibarətdir?**

☐ Xeyr

☐ Bəli. Elektrik enerjisi:

☐ Ümumi ölçü cihazı ilə hesablanır ☐ Alt ölçü cihazı ilə ölçülür

☐ Birbaşa ölçü cihazı ilə ölçülür

*Əsas ölçmə (master metering) bir binanın elektrik istifadəsinin ölçülməsidir. Alt ölçmə (sub-metering) isə fərdi bir vahidin ölçülməsidir. Birbaşa hesablaşma (direct billing)/birbaşa ölçü cihazı (direct metering) alt ölçməyə əsaslanaraq fərdi vahid üçün birbaşa hesablaşmadır.

## Təşkilat üçün suallar

**10. Təşkilatınızda dayanıqlılıq, məsuliyyətli investisiya və ya ESİ (Ekoloji, Sosial və İdarəetmə) üzrə siyasət formalaşdırılmışdırmı?**

☐ Xeyr

Müvafiq plan və ya siyasətin hazırlanması nəzərdə tutulurmu?

☐ Bəli. Plan və siyasəti təqdim edin. Həmçinin aşağıda göstərilmiş xanaya müvafiq elektron səhifəyə keçidi təmin etməyiniz xahiş olunur.

Siyasətin nəzərdən keçirilmə tezliyini qeyd edin.

☐ Rüblük ☐ İllik ☐ Digər (izah edin):

**11. Təşkilatınızın standart lizinq müqavilələrinə ESİ tələbləri daxil edilmişdirmi?**

☐ Xeyr

☐ Bəli. Təşkilatınız ABŞ Enerji departamentinin “Better Buildings Alliance” çərçivəsində "Yaşıl Lizinq Lideri" kimi tanınırmı? ☐ Xeyr ☐ Bəli

**12. Təşkilatınız investisiyalar üzrə uzunmüddətli performans təkmilləşdirmə hədəfləri müəyyən etmişdirmi?**

☐ Xeyr

☐ Bəli. Aşağıdakı göstəricilərdən təşkilatın uzunmüddətli performans yaxşılaşdırma hədəflərinə uyğun olanları seçin:

☐ Enerji istehlakı ☐ Bərpa olunan eneji istifadəsi ☐ İstixana qazlarının emissiyası

☐ Su istehlakı ☐ Məlumatın genişliyi

☐ Digər, izah edin:

Cavabınız müsbət olduğu təqdirdə, 12-ci sualda seçmiş olduğunuz hədəfləri aşağıdakı cədvəldə ətraflı izah edin:

| **Təkmilləşdirmə hədəfi** *(Ölçmə nümunəsi)* | **Əsas (Başlanğıc ili)** | **Son il** | **Hədəf göstəricisi** | **Mitiqasiya hədəfi** | **Açıqlanmış hədəflər** |
|---|---|---|---|---|---|
| Enerji istehlakı *(Mwh, kWh/SF, m2, KBtu)* | | | | | ☐ Xeyr<br>☐ Bəli |
| Bərpa olunan enerji istifadəsi *(MWh və ya bərpa olunanların % nisbəti)* | | | | | ☐ Xeyr<br>☐ Bəli |
| İstixana qazlarının emissiyası *(MtCO2e və ya mtCO2e/SF)* | | | | | ☐ Xeyr<br>☐ Bəli |
| Su istehlakı *(Klitr və ya m3)* | | | | | ☐ Xeyr<br>☐ Bəli |
| Tullantıların zibillikdən yayındırılması *(% yayındırılmış)* | | | | | ☐ Xeyr<br>☐ Bəli |
| Məlumatın əhatə dairəsi *(% Məlumatın çərçivəsi)* | | | | | ☐ Xeyr<br>☐ Bəli |
| Digər | | | | | |

*Bu məlumat üçüncü tərəf tərəfindən təsdiqlənmişdir mi?*

☐ Xeyr.

☐ Bəli (üçüncü tərəfin adı)

**13. Təşkilatınız ESİ fəaliyyətlərini və (və ya) performansını kənar maraqlı tərəflərə açıqlayırmı?**

☐ Xeyr

Gələcəkdə ESİ amilləri üzrə açıqlamaların təqdim edilməsi planları varmı?

☐ Bəli. Proses və ünsiyyət kanallarını, həmçinin müvafiq nümunələri qeyd edin (*Nümunələr ESİ fəaliyyətləri ilə əlaqəli ola bilər).*

Cavabınız müsbət olduğu təqdirdə, bu sorğunu təqdim edərkən müvafiq ictimai sənədin əlavə olunmasını və ya keçid linkinin təqdim edilməsini təmin edin.

**14. Təşkilatınız aşağıda qeyd olunan hər hansı bir ESİ liderlik standartına və ya hesabat çərçivəsinə dair ictimai öhdəlik götürüb və ya üzv olubmu? Uyğun variantları seçin:**

| **Liderlik Standartı/ Hesabat çərçivəsi** | **Üzvlük** | **Öhdəlik** |
|---|---|---|

| ☐ Heç biri | Mövcud deyil | Mövcud deyil |
|---|---|---|
| Birləşmiş Millətlər Təşkilatının Məsuliyyətli İnvestisiya Prinsipləri (UNPRI) | ☐ | ☐ |
| Qlobal Daşınmaz Əmlak Davamlılıq Qiymətləndirilməsi (GRESB) *Sonuncu GRESB qiymətləndirməsi?* | ☐ | ☐ |
| Karbon Açıqlama Layihəsi (CDP) | ☐ | ☐ |
| Qlobal Hesabatlılıq Təşəbbüsü (GRI) | ☐ | ☐ |
| Energy Star | ☐ | ☐ |
| İqlimlə əlaqədar Maliyyə Açıqlamaları üzrə işçi qrupu (TCFD) | ☐ | ☐ |
| Dayanıqlılıq Mühasibatlığı Standartları Şurası (SASB) standartları | ☐ | ☐ |
| Dayanıqlı İnkişaf Məqsədləri (SDG) | ☐ | ☐ |
| Elmi əsaslı Hədəflər Təşəbbüsü (SBTi) | ☐ | ☐ |
| Birləşmiş Ştatlar Yaşıl Binalar Şurası (United States Green Building Council) | ☐ | ☐ |
| Karbon Hesablamaları Maliyyəsi üzrə Tərəfdaşlıq (Partnership for Carbon Accounting Financials) | ☐ | ☐ |
| İqlim Dəyişiklikləri üzrə Qlobal İnvestor İttifaqı (Global Investor Coalition on Climate Change) | ☐ | ☐ |
| Net Sıfır Karbon Binalar Öhdəliyi (Net Zero Carbon Buildings Commitment) | ☐ | ☐ |
| Net Sıfır Aktiv İdarəçiləri İttifaqı (Net Zero Asset Managers Initiative) | ☐ | ☐ |
| Digər | ☐ | ☐ |

**Yuxarıda qeyd olunan ESİ proqramı üçün təşkilatınızın rəsmi hesabatının adı nədir?**

**15. Təşkilatınız əmlaklarında bərpa olunan enerji istifadəsini nəzərdə tuturmu?**

☐ Xeyr

☐ Bəli. Yenidənqurma planlarınızı və zaman cədvəlinizi qısa şəkildə təsvir edin.

**16.** Əgər varsa, enerji xərclərini azaltmaq, dayanıqlılığı artırmaq, həmçinin şirkət və ya əmlaklarda ESİ performansını təkmilləşdirmək üçün həyata keçirdiyiniz və ya həyata keçirməyi planladığınız digər fəaliyyətləri qeyd edin**.**

“Yaşıl” və “Dayanıqlılıqla əlaqəli” kreditlər üzrə
Təlimata Əlavə 2

Aşağıdakı siyahı indikator kimi qəbul oluna bilən bəzi ümumi ƏDH kateqoriyaları nümunələrini əhatə edir.

| Kateqoriya | Nümunə |
|---|---|
| Enerji səmərəliliyi | LED işıqlandırma və yüksək səmərəli HVAC (Heating, Ventilation, Air Conditioning – İsitmə, Havalandırma və Kondisioner) sistemləri tətbiq edərək 3 il ərzində enerji istehlakını 30% azaltmaq |
| İstixana qazı emissiyaları | Yenilənə bilən enerji mənbələrinin artırılması ilə 5 il ərzində istixana qazı emissiyalarını 30% azaltmaq |
| Bərpa olunan enerji | Yenilənə bilən enerjinin ümumi enerji istehlakında payını 5 il ərzində 50%-ə çatdırmaq |
| Su istehlakı | Suyun təkrar emalı texnologiyaları və yağış suyu yığma sistemlərini tətbiq edərək 5 il ərzində bütün əməliyyatlarda su istehlakını 25% azaltmaq |
| Əlverişli mənzil | 5 il ərzində azı 30%-nin yaşıl bina standartlarına uyğun olmasını təmin edərək 300 əlçatan mənzil inşa etmək |
| Dayanıqlı mənbə | Üç ilin sonuna qədər xammalın 75%-ni sertifikatlaşdırılmış dayanıqlı təchizatçılardan təmin etmək. |
| Dairəvi iqtisadiyyat | Tullantıların idarə olunmasını yaxşılaşdırmaq və işçi təlim proqramları vasitəsilə 5 il ərzində təkrar emal nisbətlərini 40% artırmaq |
| Dayanıqlı əkinçilik və qida | Torpağın sağlamlaşdırılması məqsədilə 5 il ərzində bütün kənd təsərrüfatı əməliyyatlarını orqanik praktikalarına keçirmək |
| Bioloji müxtəliflik | Növbəti 10 il ərzində yerli canlı növlərinin yaşayış mühitini yaxşılaşdırmaq üçün 1,000 ha deqradasiyaya uğramış torpağı bərpa etmək |
| Qlobal ESİ qiymətləndirməsi | Hədəflənmiş davamlılıq təşəbbüsləri vasitəsilə 3 il ərzində müştərinin ESİ reytinqini azı 2 səviyyə artırmaq |